# ORTA MƏKTƏBLƏRİN VII SİNİFLƏRİNDƏ KİMYA FƏNNİNİN YENI TƏHSIL PROQRAMLARI (KURİKULUMLARI) ƏSASINDA TƏDRİSİNƏ AİD DƏRS NÜMUNƏSİ

**A.Ə. Teyli**

*Bakı şəhəri, 83 nömrəli məktəb-liseyin kimya müəllimi, kimya elmləri üzrə fəlsəfə doktoru, əməkdar müəllim*

2008-2009-cu tədris ilindən başlayaraq ümumtəhsil məktəblərimizin I siniflərində fənlərin tədrisi yeni təhsil proqramları (kurikulumları) əsasında yazılmış dərslik və dərs vəsaitlərindən istifadə etməklə tədris olunur. Ənənəvi tədris proqramlarından fərqli olaraq yeni fənn kurikulumları şəxsiyyətyönümlü, şagirdyönümlü, nəticəyönümlü, tələbyönümlü olmaqla, sistemli inteqrativliyi və qiymətləndirmə standartlarını özündə birləşdirir.

Cari tədris ilindən ilk olaraq ölkəmizin ümumtəhsil məktəblərinin VII siniflərində kimya fənni qəbul olunmuş yeni təhsil proqramları (kurikulumları) əsasında hazırlanmış dərsliklərdən istifadə olunmaqla tədris olunur. Fənn müəllimləri yeni metodika əsasında yazılmış vəsaitlərdən istifadə edirlər.

Kimya fənninin tədrisi isə hər bir müəllimin fərdi yaradıcılıq qabiliyyətindən asılı olaraq hər bir məzmun və alt standartlarını təlim nəticələrinə uyğun olaraq necə reallaşdırmasından asılıdır.

Bakı şəhəri 83 nömrəli məktəb-liseydə kimya dərsləri zəruri avadanlıqlarla, reaktivlərlə, müxtəlif sxem və plakatlarla, elektron lövhə, kompüter və proyektorla təchiz olunmuş kimya kabinetində aparılır.

Kimya fənn kurikulumu əsasında tədris olunan VII siniflərdə kimya dərsləri kurikulumun tələbləri əsasında təlim nəticələrinə uyğun aparılır. Aşağıda VII sinifdə fəal təlim metodu ilə tədris etdiyim «Kimyəvi element, izotoplar» mövzusuna aid dərs nümunəsi təqdim edilir.

Məzmun standartı: 1.2.1; 1.2.2.

**Mövzu: Kimyəvi element. İzotoplar**

**Təlim məqsədi:** Şagirdlər: 1. Atom, izotop, izoton və kimyəvi element anlayışlarını bir-birindən fərqləndirir. 2. Atom və kimyəvi element anlayışlarının mahiyyətini hidrogen və oksigen elementləri misalında izah edir. 3. Kimyəvi elementlərin işarələrini tanıyır və adlandırılmasını bilir.

**Təlim forması:** Qruplarla iş

**Təlim üsulu:** Problemli şərh, Venn diaqramı, dərslik üzərində iş

**Dərsin tipi:** Yeni bilik (produktiv) verən dərs

**Resurslar:** Atomun planetar modeli, atomun tərkibi və quruluşuna aid dərslikdən və internet materiallarından istifadə olunan şəkil, sxem, Venn diaqramı və cədvəllər. Elektron lövhə, kompüter və proyektor.

**İnteqrasiya:** F. 2.1.2

**Dərsin gedişi:**

**I mərhələ. Motivasiya, problemin qoyuluşu.**

Motivasiya yaratmaq üçün şagirdlərə Yer kürəsi və bir almanın, bir alma ilə bir atomun müqayisəsini xatırladıram. Atomun planetar modelinə əsasən atomun tərkibi, proton, neytron, elektronların sayı, kütləsi və yükü haqqında cədvəli təqdim edirəm. Cədvəldəki məlumatlar əsasında şagirdlərlə birlikdə tədqiqat sualını müəyyən edirəm.

**Tədqiqat sualı:** Kimyəvi element və izotop bir birindən nə ilə fərqlənir, kimyəvi elementlərin işarələri və adları necə tərtib edilir?

**II mərhələ. Tədqiqatın aparılması.**

Sinfində oxuyan şagirdləri 4 qrupa ayırıram və hər bir qrupa əvvəlcədən hazırladığım tədqiqat suallarını təqdim edirəm.

I qrup

1. Atom necə hissəcikdir? Onun hansı təriflərini bilirsiniz?
2. İzotop nədir? Nümunələr göstərin.
3. Kimyəvi elementlərə ad necə verilir?
4. Hansı kimyəvi elementlərin adları Azərbaycan dilindəki adlarından fərqlənir?

II qrup

1. Atomun tərkibində hansı hissəciklər vardır?
2. Hidrogenin izotopları arasında oxşar və fərqli əlamətləri göstərin.
3. Elementin kimyəvi işarəsi onun nəyini xarakterizə edir?
4. Kimyəvi element və atom bir-birindən nə ilə fərqlənir?

III qrup

1. İzotoplarda fərqli olan əlamətlər hansılardır?
2. Atomun kütlə ədədi necə müəyyən edilir?
3. Müasir zamanda kəşf olunan kimyəvi elementlər necə adlanır?
4. İzoton nədir? Təklif olunan sxemdə izotonları göstərin.

IV qrup

1. Atomun növünü nə müəyyən edir? Nümunə göstərin.
2. Oksigenin izotopları arasında oxşar və fərqli əlamətləri göstərin.
3. Kimyəvi elementlərin müasir işarələrinin necə yarandığını izah edin.
4. İzotoplarda kütlə ədədi və protonların sayı necə göstərilir?

**III mərhələ. Məlumat (informasiya) mübadiləsi.**

Bu mərhələdə hər bir qrupa daxil olan şagirdlər birlikdə fikir mübadiləsi edir, verəcəkləri cavabları dəqiqləşdirirlər və təqdim etməyə hazır olduqlarını bildirirlər. Hər bir qrupdan bir şagird – qrup lideri icra olunmuş işin nəticələrini təqdim edir. Bütün qrupların üzvləri təqdimatları cavabları diqqətlə dinləyirlər.

**IV mərhələ Məlumatın müzakirəsi və təşkili.**

Bu mərhələdə qrupların təqdimatları müzakirə edilir, ümumiləşdirmələr aparılır, qrupların təqdimatları arasında oxşarlıq və fərqlər, uyğunluqlar və çatışmazlıqlar qeyd edilir.Təlim məqsədinə uyğun olaraq kimyəvi element, izotop və izotonlarda oxşar və fərqli əlamətləri, kimyəvi elementlərin işarələri və onların adlandırılmasının xüsusiyyətlərini şagirdlərin diqqətinə çatdırıram.

**V mərhələ. Nəticələrin ümumiləşdirilməsi.**

Elektron lövhədə verilmiş cədvəl və Venn diaqramına əsasən hidrogen və oksigen elementinin izotoplarında hansı əlamətlərin eyni və fərqli olduqları müəyyən edilir. Verilən cədvəl və diaqrama əsasən izotop və izotonlarda hansı əlamətlərin eyni olduğunu dəqiqləşdirilir.

**VI mərhələ. Qiymətləndirmə.**

Elektron lövhədə verilən meyar cədvəlində qrup üzvləri ilə birlikdə onların fəaliyyətinin aşağıdakı meyarlar üzrə qiymətləndirilməsi aparılır. Qiymətləndirmə "+" və " –" işarəsi ilə qeyd edilir.

| Qruplar / Meyarlar | I | II | III | IV |
|---|---|---|---|---|
| Anlayışların dəqiq izahı | | | | |
| Fikirləri aydın şərh etmə | | | | |
| Anlayışlarının müqayisəsi | | | | |
| Kimyəvi elementlərin işarələri və adlandırılmasına nümunə gətirməsi | | | | |
| Qruplarda əməkdaşlıq | | | | |
| Qruplarda fəallıq | | | | |

Fəal təlim prosesində sinif şagirdlərinin hamısının birgə işləmələrinə, əməkdaşlıq etmələrinə şərait yaranır, onların fəallığı artır. Şagirdlərdə tədqiqatçılıq qabiliyyəti, öyrəndikləri bilikləri ümumiləşdirmək, nəticə çıxarmaq və tətbiq etmək bacarığı formalaşır. Bu növ yanaşma şagirdlərdə öz biliklərinə əsaslanaraq öyrənməyi öyrənmək bacarığını inkişaf etdirir, təhsildə və həyatda uğur və müvəffəqiyyətlər qazanmalarına zəmin yaradır.

## İstifadə edilmiş ədəbiyyat:

1. M.Abbasov, V.Abbasov, N.Abışov, V.Əliyev. Kimya. 7-ci sinif üçün dərslik. Bakı, 2014, 96 səh.
2. M.Abbasov, A.Əliyev. Kimya. 7-ci sinif, Müəllim üçün metodik vəsait. Bakı. 2014, 88 səh.
3. Veysova Z. Fəal-interaktiv təlim. Bakı, UNESCO,2000, 187 səh.
4. Ümumi təhsil pilləsində yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim. İştirakçılar üçün təlim vəsaiti. Kimya. Bakı. 2014. Mədət Azərbaycan.
5. http:// derslik.az/site/
6. www. oxuyuruq. biz.

*A.A.Тейли*

**Модель преподавания на основе новой учебной программы по химии (курикулумов) для 7-й классов средних школ**

**АННОТАЦИЯ**

Во время активного учебного процесса, которое проводится по программе курикулума, создается условие для совместной работы всех учеников, их взаимного сотрудничества

*A.A.Teyli*

**Sample lesson for teaching chemistry under new education programs (curriculum) in 7th classes at secondary schools**

**ANNOTATION**

Lesson is a mirror of general and pedagogical culture of the teacher, indicator of her intellectual richness, knowledge level and worldwide. (April 30, 2009. Education and Time) The power of speech is ability to say a lot with little words. (Plutarx).

**Açar sözlər:** Kurikulum, fəal təlim, birgə işləmək, əməkdaşlıq, ümumiləşdirmək, tədqiqatçılıq, nəticə çıxarmaq, tətbiq etmək

**Ключевые слова:** Курикулум, активная учеба, совместная работа, сотрудничество, обобщать, исследовательское, применить

**Key words:** Curriculum, active teaching, co-working, cooperation generalize, research, to come to a conclusion, to apply